***Akademik Tarih ve Düşünce Dergisi*** ***Academic Journal of History and Idea***
***ISSN: 2148-2292***
***11 (1) 2024***

***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received:30.01.2024***
***Kabul tarihi |Accepted:05.02.2024***
***Yayın tarihi |Published:25.02.2024***

**Sevda Khalafova**

*https://orcid.org/0000-0002-7179-7032*
*Associate Professor, Doctor of Philosophy, Baku State University, Azerbaijan, s.xalafova@gmail.com*

**Zahida Tofiq Rzayeva**

*https://orcid.org/0000-0003-3696-6950*
*Associate Professor, Doctor of Philosophy, Baku State University, Azerbaijan, missdior.96@bk.ru*

***Atıf Künyesi | Citation Info***

Khalafova, S., Rzayeva, Z. T. (2024). Kitabxana-İnformasiya Fəaliyyətinin Müasir Menecmentinin Bəzi Məsələləri. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (1), 344-354.

# Kitabxana-İnformasiya Fəaliyyətinin Müasir Menecmentinin Bəzi Məsələləri

***Öz***

*Mədəni insan cəmiyyətinin yaranmasından başlayaraq kitabxanalar da yaranmış və tarixin mextəlif mərhələlərində informasiya xidmətinin forma və metodlarını dəyişdirsə də əsas məqsəd və vəzifələrini qoruyub saxlamış və proqressiv missiya yerinə yetirmişdir. Kagızın meydana gəlməsi, kitab çapı texnologiyasının kəşfi bu prosesə nə qədər əsaslı təsir etmişdisə, kompüterləşmə və rəqəmsallaşma bir oqədər təsir etmiş və inkişafımızın yeni mərhələsini səciyyələndirmişdi. Mədəni cəmiyyətin ilk komponenti mədəniyyətdir və əgər mədəniyyət yoxdursa deməli mədəni cəmiyyətdə yoxdur. Kitabxanalar isə mədəni cəmiyyətin tarixi yaddaşı və hər bir tarixi dövrün elmi informasiya proseslərinin təşkilatçısıdır. Məhz bu konsepsiyaya əsaslanaraq mövzunun təhlili tarixi müqaisəli metoda əsaslanır. XXI əsrin çagırışları olaraq kitabxanalar yeni funksiyaları öz üzərinə götürür, elmi kitabxanalar, kütləvi kitabxanalar, uşaq kitabxanalarında forma və məzmunca yeni fəaliyyət istiqamətləri formalaşır. Məqalədə bu, yeni istiqamətlərin təsnifatı və perespektivlərini təhlil etməyə çalışmışıq. Eləcə də kitabxanaların institutlaşmış sosial müəssisə olaraq üzərinə götürə biləcək funksiyaların daha da artacagı tendensiyalar məqalədə öz əksini tapır. Eləcə də , cəmiyyətin informasiyalaşması prosesində kitabxanaların institutlaşmış müəssisələr olaraq əhəmiyyəti və inisiativ alması imkanları da müzakirə edilir. Eləcədə, kitabxanaların XXI əsrdə*

*üzərinə götürəcəyi tarixi missiya təhlil olunur və müasir dövrümüzün tələbləri çərçivəsində metrik fəaliyyətin əhəmiyyəti, kitabxanaların bu sahədə təcrübəsi, sürətli və etibarlı informasiya xidmətinin təşkili məsələləri müzakirə* olunur.

***Açar sözlər:*** *XXI əsrin kitabxanaları, yeni funksiyalar, elmi kitabxanalar, kütləvi kitabxanalar, uşaq kitabxanaları*

# Some Issues of Modern Management of Library and Information Activities

***Abstract***

*Since the formation of a civilized human society, libraries have been created and changed the forms and methods of information services at different stages of history, but retained their main goals and objectives and carried out a progressive mission. Just as the advent of paper and the invention of printing technology had a profound effect on this process, computerization and digitalization have had a great impact and marked a new stage in our development. The first component of a cultural society is culture, and if there is no culture, then there is no cultural "society". Libraries are the historical memory of a cultural society and the organizer of the scientific and information processes of each historical period. Based on this concept, the analysis of the topic is based on the method of historical comparison. With the challenges of the 21st century, libraries are taking on new functions, forming "new lines of activity in form and content" in research libraries, public libraries and children's libraries. In this article, we have tried to analyze the classification and prospects of these new directions. The article also reflects the trend towards libraries taking on more functions as institutionalized social institutions. The importance of libraries as institutionalized institutions and the opportunities for them to take the lead in informatization of society are also discussed. It also analyzes the historical mission of libraries in the 21st century and discusses the importance of metric activity in the context of modern requirements, the experience of libraries in this area, and the organization of fast and reliable information services.*

***Keywords:*** *Libraries of the XXI century, new functions, scientific libraries, public libraries, children's libraries*

## Giriş

Müasir bazar iqtisadiyyatı şəraitində yeni idarəetmə formalarının tətbiq edilməsi dövrün tələbindən irəli gəlir. Belə idarəetmə formalarından biri kimi menecment texnologiyalarına nəzər salaq. Menecment mikroiqtisadiyyatın (firmanın) idarə olunmasının "prinsip, metod və formaları haqqında nəzəri və praktiki biliklər Sistemidir". XXI əsrdə ciddi problem kimi qarşımıza çıxan "Kitabxana-informasiya müəssisələrinin menecmentinə" məhz belə bir yanaşma irəli sürülə bilər.

Bazar münasibətləri şəraitində əmək bölgüsünün dərinləşməsinin yeni təzahür forması olan menecerlik sahibkarların başqa şəxslərə verdiyi funksiyadır. Bu halda sahibkar olaraq dövlət çıxış

edir. İstehsalın həcminin artması, iqtisadi əlaqələrin genişlənməsi çoxsaylı funksiyaların icra olunmasını zəruri edir. Sahibkar isə onların hamısı ilə məşğul ola bilmir və ya olmaq istəmir. Mülkiyyətçi sahibkar müəyyən mərhələdə hiss edir ki, işin öhdəsindən gələ bilmir və köməkçi idarəçilərə ehtiyacı var. Bu cür muzdlu idarəçi menecer adlandırılır, onun icra etdiyi funksiyalara isə mcnecment deyilir. Kitabxana-informasiya fəaliyyətində bir çox hallarda mülkiyyətçi olaraq dövlət çıxış edir, sifarişi də dövlət verir (müvafiq qurumların vasitəsi ilə), nəticələrin qiymətləndirməsi işini də dövlət həyata keçirir. Etiraf etmək lazımdır ki, XXI əsri informasiya əsri adlandıranlar informasiyanın əhəmiyyətini düzgün anladıqları halda dezinformasiyanın da cəmiyyətdə təsir imkanlarını bilir və qiymətləndirir. Belə olan halda çox böyük informasiya kütləsi ilə işləyən və ciddi təsir imkanlarına malik kitabxanaların öz potensialından istifadə etməməsi və ya istifadə etmək imkanlarının yaradılmaması problemi öyrənilməli və inkişaf istiqamətləri müəyyənləşdirilməlidir.

Post Sovet respublikalarında geniş şəbəkəyə malik olan kitabxana infrastrukturlarırnın oldugu məlumdur.. Sovet dövründə əsasən ideolojı funksiyalar yerinə yetirən ictimai kitabxanalar uzun müddət "funksianal qeyri müəyyənlikdə" oldu. Bir sıra respublikalarda islahatlar adı ilə çox sayda kitabxanalar baglandı. Lakin informasiya məhsulları ilə işləyən quruplar azalmadı (Agamirzayev i Kazimi, 2023). Məlundur ki, informasiya əsrində bir yazıçının çox da cazibədar olmayan əsərinin kitabxanalar tərəfindən mütəmadi və sinxron təblig olunması müəllifin əsərlərinin kütləvi yayımı və mütaliəsini təşkil edir, onu "Nobel" mükafatçısı etməsə də bu müəllifi tanınan edir, bir çox hallarda kitablarının kütləvi satışına səbəb olur, oxucu auditoriyasını yönəldir və s. Təəccüb doguran da məhz budur ki, kitabxanalar bu imkanlarından geniş istifadə etmir və etmək istəmir. Bir sıra hallarda kitabxana menecmentində və marketinq fəaliyyətitində boşluqların, qeyri peşəkarların da oldugu məlumdur. Elmi kitabxanaların fəaliyyətinin əhəmiyyəti genişlənməkdədir və cəmiyyət bu istiqamətdə kitabxana-informasiya fəaliyyətinin qiymətləndirilməsində perespektivi görür. Belə olan halda digər növ kitabxana xidmətlərinin sosial funksiyası azalmır. İdarəetmə funksiyasının bir qisminin sahibkardan ayrılıb başqa şəxslərə verilməsi birdən-birə olmamışdır. XIX əsrin sonu XX əsrin əvvəllərində yaranmış şərait idarəetmə məsələlərinə yeni şəkildə yanaşmağı, yeni metod və vasitələrin tətbiq edilməsini zəruri etmişdir. İstehsalın təmərküzləşməsi və mərkəzləşməsi, inhisarların yaranması, yeni texnika və texnologiyaların istehsal proseslərinə tətbiqi, istehsal əlaqələrinin genişlənməsi idarəetmə sisteminə təsir etmiş və onu mürəkkəbləşdirmişdir. Belə bir vəziyyətdə idarəetmə müstəqil fəaliyyət sahəsi kimi ayrılıb nisbi müstəqillik kəsb etmişdir. Bu prosesin davamı olaraq XX əsrin

ortalarında baş vermiş elmi-texniki inqilab (ETİ) bilavasitə idarəetmə münasibətlərinə təsir etdi. İstehsalın idarə edilməsində yeni qayda, yeni əmək intizamı, yeni təşkilatçılıq bacarığı tələb etdi və idarəetmə elminə böyük ehtiyac yarandı. İdarəetmə funksiyalarını yerinə yetirən adamların qarşısında yeni tələblər qoyuldu, onların rolu daha da artı. Buna görə də yeni keyfiyyətlərə, bacarığa malik idarəçilərin - menecerlərin formalaşdırılması zərurəti meydana çıxdı. Firmadaxili proseslərin peşəkar idarəedilməsi ilə məşğul olan mütəxəssislərin - mcnccerlərin nüfuzu, sosial vəziyyəti və əsasən də idarəctmə sahəsindəki rolunun artması «menecerlik inqilabı» konsepsiyasının yaranmasma səbəb olmuşdur. Menecmentlik fəaliyyətinin mcydana gəlməsi, yuxarıda göstərilənlərlə yanaşı, konkret olaraq aşağıdakı amillərlə bağlıdır:

l.Korporasiyaların, səhmdar comiyyətlərin yaranması ilə onların daşınmaz və daşınan əmlaklakının səmərəli idarə edilməsi funksiyasının xüsusi şəxslərə və ya qruplara verilməsi zərurəti doğurur;

2. Rəqabət mübarizəsinin güclənməsi müəssisə işinin elə təşkilini tələb edir ki, onun rəqabət qabiliyyəti artsın;

3. İstehsal texnologiyasının mürəkkəbləşməsi, avadanlığın dəyərinin artması, müəssisə daxili strukturunun çox halqalı olması, işçilərin sayının çox olması və s. Müəssisədaxili idarəetmə sisteminin təkmilləşdirilməsini tələb edir. İşi elə təşkil etmək lazım gəlir ki, onun hər bir iştirakçısı yaxşı işləmək üçün məsuliyyət hiss etsin, təşəbbüskar, yaradıcı olsun;

4. Başlıcası da budur ki, firmanın malik olduğu iqtisadi resurslardan, potensial imkanlardan səmərəli istifadə etməklə qarşıya qoyulmuş məqsədlərə nail olunsun.

Tək sahibkar bu qədər işin öhdəsindən gələ bilməyəcəyini hiss etdiyi andan bacarıqlı, işgüzar adamlarla birgə işləməyi üstün tutur və bir çox funksiyalarını onlarla bölməli olur ki, iqtisadiyyat səmərəli idarə olunsun. Resursların səmərəli idarə olunması yolu ilə qarşıya qoyulmuş məqsədlərə nail olmaq menecerlər qarşısında qoyulmuş əsas tələbdir. Menecerlər mülkiyyətçi deyildir, ancaq işlədikləri müəssisələrin səhmlərini ala bilərlər. Bundan asılı olmayaraq menecerlər xidmətində olduğu fırmanın mənafeyini əsas tutmalıdır. Menecment yalnız bazar mühiti şəraitində fəaliyyət göstərən müəssisələrdə sosial-iqtisadi proseslərin idarə olunmasını əks etdirir. Menecment mikrososial idarəetmə prinsipləri ilə realizə olunur. Həmin prinsiplər aşağıdakılardır:

1. Hər bir işçinin fərdi potensialının maksimum nəzərə almması;
2. Müxtəlif işçi qruplarının sıx birliyini və əməkdaşlığını nəzərdə tutan «işgüzar partnyorluğun» təmin edilməsi;
3. «İqtisadi mərkəziyyətsizlik» prinsipi - bu müəssisənin hər bir halqasında müstəqil inzibati-

təsərrüfat qərarları qəbul edilməsini nəzərdə tutur.

Bir funksiya olmaq etibarilə mcnecmentin əsas istiqamətləri aşağıdakılardır:

- Müəssisənin mikro-sosial strukturunun ıııüəyyən edilməsi, qruplar və onların arasındakı münasibətlərin (sosial-peşə, mədəni təhsil, ixtisas və demoqrafik) dəqiqləşdirilməsi;
- Kiçik qrupların («müstəqil İşçi briqadalarının», «məqsədli qrupların») yaradılması yolu ilə kollektiv səyləri birləşdirmək;
- Sosioloji tədqiqatlar yolu ilə «qeyri-formal» qrupların seçilməsi.

Müasir dövrdə menecment fırmada istchsalın səmərəli sosial təşkilinin nəzəriyyəsi kimi geniş nüfuz qazanmışdır: İnkişaf ctmiş sənaye ölkələrinin təcrübəsi göstərir ki, fırmaların işinin səmərəli sosial təşkili onların fəaliyyətinə müsbət təsir göstərən güclü amilə çcvrilmişdir.

**1.Yeni Funksiyalar**

Mədəniyyət insan toplumunun (cəmiyyətin) tarixi inkişaf prosesində müştərək olaraq meydana gətirdiyi, əldə etdiyi maddi və mənəvi sərvətlərin, dəyərlər sisteminin məcmusudur. Mədəniyyət müəssisələri isə bu sərvətlərin qorunub saxlanılmasında və gələcək nəsillərə çatdırılmasında böyük əhəmiyyətə malikdir. Bu istiqamətdə kitabxanaların missiyası xüsusilə diqqəti cəlb edir.

Mədəniyyətin mühüm tərkib hissələrindən biri heç şübhəsiz, kitabxanalardır. Mədəni cəmiyyətin yaranışından başlayaraq insanları müşaət edən kitabxanalar mədəni cəmiyyətin vacib atributuna çevrilmişdir (Kazimi, 2021). Dogrudur ki, XXI əsrin əvvəllərindən başlayaraq kitabxanaların missiyası haqqında pissemist fikirlər yayılmaga başlamış və təəssüflə demək lazımdır ki, hətta mütəxəssislər belə bu kimi müzakirələrdə iştirak edirlər. Kitabxanaların "yox olacagı" (baglanacagı) haqqında "peyqəmbərlik" edənlər yaqin ki, anlamır ki, mədəni cəmiyyətin ilk komponenti mədəniyyətdir və əgər mədəniyyət yoxdursa deməli mədəni cəmiyyətdə yoxdur. Kitabxanalar isə mədəni cəmiyyətin tarixi yaddaşı və hər bir tarixi dövrün elmi informasiya proseslərinin təşkilatçısıdır,"draveridir". İnformasiya eytiyaclarının və informasiya xidmətinin müasir dövrdə forma və məzmun xüsusiyyətlərinin dəyişməsi, transformasiyası isə anlaşılandır və öyrənilməsi vacibdir. Mədəniyyət tarixini göstərir ki, müxtəlif dövrlərdə elmi-texniki tərəqqi prosesi mədəniyyətin müxtəlif istiqamətlərinə öz təsirini göstərmiş və müəyyən transformasiyalara məruz qalmışdı. Qutenberqin çap maşınının kəşfi tədricən poliqrafiya sənayesini formalaşdırdı, kitab istensalı kitabxanaların nəzdindən çıxaraq müstəqil fəaliyyət sahəsinə çevrildi. Bu prosesdə kitab mədəniyyətin tərkib hissəsindən çıxaraq daha çox ticarət obyektinə çevrildi.

## 2. Problemin Təhlili

XXI əsrdə də kitabxanaların sosial funksiyaları özünü qoruyub saxlayacaq. Bu funksiyalara bir nəzər salaq. Sosial funksiyalar təsir obyektinə görə kitabxananın daxili hüdudlarından kənara çıxan xarici funksiyalardır ki, o, cəmiyyətə birbaşa və ya dolayısı ilə təsir edən funksiyalar (Kazimi, 2011). Texnoloji funksiyalar da əhəmiyyətlidir və bu finksiya da müasir dövrlə ayaqlaşır. Bunlar təsir obyektinə uyğun olaraq kitabxananın hüdudlarından kənara çıxmayan, kitabxananın sosial funksiyalarını yerinə yetirməsi, habelə kitabxananın fəaliyyətini təmin etmək üçün zəruri şərt kimi xidmət edən daxili fəaliyyətlərdir. Tələb olunan rejimdə və ya müvafiq keyfiyyətdə tələb olunur (Kazimi & Gurbanov, 2022). Texnoloji funksiyalar cəmiyyət tərəfindən hiss olunmaya bilər, onların varlığından xəbərsiz ola da bilər. Onlar "kitabxana istehsalı"nın çox əhəmiyyətli vasitələridir və kitabxana-informasiya məhsullarının istehsalında istifadə olunur. Sosial funksiyalar kitabxanaşünaslığın mütəxəssisləri tərəfində aşağıdakı kimi müəyyənləşdirilir: İdeoloji və tərbiyəvi (ideoloji), Mədəni-maarifləndirici, məlumat Hedonistik (hedone - həzz). Qeyd edək ki, bu funksiyalar kitabxana-informasiya fəliyyətində öz yerini qoruyub saxlayır, bəzi hallarda isə texnolojı transformasiyaya məruz qalır. Kitabxanaların yeni funksiyalarına tarixi aspekdə baxılması kitabxanaların müxtəlif tarixi dövrlərdə üzərinə götürdüyü funksianallıgı müəyyən etməyə imkan verir. Mənzərənin bu baxımdan daha dolgun olacagını düşünərək kiçik tarixi ekskurs edək. Etiraf edək ki, yaranışından bu günə qədər kitabxanalar müxtəlif əsas və yardımçı funksiyaları üzərinə götürmüş və inkişafın müəyyən mərhələlərində ya o sahələr müstəqil fəaliyyət olaraq fəaliyyətini davam etdirmiş (çap maşının kəşfindən sonra poliqrafiya sənayesi), ya da bir fəaliyyət olaraq sıradan çıxmışdır(kolleqrafiya işi). Eləcə də kitabxana işinin tarixi ilə məşgul olanlar bilirlər ki, mütaliə mədəniyyəti problemləri və ictimai mütaliənin təşkilatçısı olaraq kitabxanalar əsasən XX əsrin əvvəllərində geniş fəaliyyət göstərməyə başlamış və erkən orta əsrlərdə kitabxanaların belə funksiyaları olmamışdır. Tarixi təcrübə göstərir ki, inkişafın özü yeni imkanlar və yeni tələblər irəli sürür, öz növbəsində, sosial institut olaraq kitabxanalar da yeni funksiyaları öz üzərinə götürürlər. Bu problemə kitabxanaların tipologiyası və ya funksionallıgı baxımından yanaşmaq vacibdır. Müxtəlif növ kitabxanalar müasir texnologiyaların tətbiqi ilə yeni xidmət formalarını öyrənir və tətbiq edir. Xüsusilə də sosial şəbəkələrdə kitabxanaların iştirakı reqional çərçivədə dominant olmaga başlayıb. Bu sahədə kütləvi kitabxanaların fəaliyyəti diqqəti cəlb edir. XX əsrin, Sovet hakimiyyəti dövründə kitabxanalarda "oxucu gəlişləri" fəaliyyətin ciddi statistikasını təşkil edirdi. Lakin kitabxanaların sosial şəbəkələr vasitəsi ilə oxucunun "yanına getməsi" imkanları yeni reallıq yaratdı. Kütləvi kitabxanaların son illərdə sosial şəbəkələrdə geniş

fəaliyyəti diqqət mərkəzindədir. Burada, kitabxana fondunun təbligi, informasiya xidməti və sosial-mədəni aktivlik kimi lazımlı fəaliyyətlər yer almaqdadır. Kitabxanalar bu, sosial platformalarda mötəbər mənbə olaraq öz nüfuzunu saxlayır, əks halda sosial şəbəkələrdə dominant olacaq başqa informasiya yonümlü qurumlar ya yoxdu, ya da xüsusi təyinatlıdır. Sosial şəbəkələrdə mediya və kitabxana kontentlərinin konflikti baş verirsə kitabxana həmişə dominant ola bilir. Bir nümunə, -Yagışlı aylardan birində, ucqar reqionlarda bir məktəbin dam örtüyü su buraxmış və bu da mediyanın müzakirəsinə səbəb olmuşdu. Xəbər sosial şəbəkələrdə geniş müzakirə olmuş və həmin reqion haqqında ictimai rəy formalaşdırmışdı. Xəbərin koment hissəsinə bir kitabxana əməkdaşı reqionun müasir bir neçə məktəbinin şəkillərini paylaşdı və müzakirə bununla da bitdı. Bu addım göstərdi ki, "dam örtüyü su buraxmış bir məktəb hadisəsi" ilə əlaqədar geniş həcmli nəticələr çıxarmaq yanlışdı və bu reqionun məfəni-iqtisadi siması bu hadisə ilə qiymətləndirilə bilməz. Reqionların mərkəzi kitabxanaları informasiya mühitini manitorinq edir, sosial və kulturoloji müvzuları gündəmə gətirir və ictimai rəyin formalaşmasında aktiv iştirak edir.

Uşaq və məktəb kitabxanalarının əhəmiyyətli missiyası təəssüf ki, geniş müzakirə obyekti deyil (Agamirzayev ve Seidli, 2023). Lakin mədəni inkişaf prosesində bu müəssisələrin gördüyü maarifləndirici və kulturoloji işin son dərəcə böyük əhəmiyyətli oldugu aşkardır. Uşaq kitabxanaları anlayışı da inkişafın son mərhələlərində qarşıya çıxır və ya kitabxanalar bu sosial sifarişi üzərlərinə götürərək cəmiyyətin yeni inkişaf mərhələsində yeni missiya yerinə yetirir. Etiraf edək ki, erkən yaşlı uşaqların hələ oxuyub yazmaq öyrənməkdən qabaq, rəqəmsal qurgularla tanış olması, "qadjet" və "tabletləri" idarə edə bilməsi düvrümüzün reallıgıdır. Artıq ilk məktəb yaşlarında uşaqlara verilən biliklər zamanı bu reallıgı nəzərə almaq vacibdir. Bəs uşaqların "ilk kitabla" tanışlıgı bu zaman çərçivəsində gecikmirmi? Həqiqətən də mədəni cəmiyyət uşaqların klassik mütaliə vərdişlərinin yox olmasına hazırdı?

Uşaq kitabxanaları mütaliə mədəniyyətinin yaradılması prosesinin aktiv iştirakçısı olmaga çalışır və bu istiqamətdə xeyli təcrübə əldə olunmuşdur. Məlum oldugu kimi, "veb səhifələrdə" uşaqların uzun zaman keçirməsi nətizə olaraq əldə etdiyi məlumatın təsiri altına düşməsi ilə nəticələnir (Kazımi, 2017). Bu baxımdan uşaq kitabxanalarının "vebmetriya" fəaliyyəti ilə məşqul olması, "uşaq dünyası" məlumat bazalarının yaradılması, mövcud məlumat bazalarının öyrənilməsi və təhlili ilə məşgul olması vacibdir. Əks halda mütaliənin (biliyin) idarə olunması kimi əhəmiyyətli sosial və psxoloji problemlər həlli sual olaraq qalacaq.

Uşaq və məktəb kitabxanalarının vebmetriya sahəsində geniş fəaliyyəti nəticədə, vertual məkanda valideyinlərin etibar etdiyi çox sayda "uşaq dünyası" və ya ona uygun olan məlumat

bazalarının yaranmasına bununla da uşaqların informasiya yönümünü düzgün tənzimləməyə imkan verə bilər (Oqlu, 2021). Qeyd edək ki, uşaq mütaliəsinin idarə olunmasının "informasiya azadlıgı" və "insan hüquqları" probleminə heç bir aidiyyəti yoxdur. Tarixə nəzər saldıqda məlum olur ki, kitabxanalar həmişə cəmiyyətə, onun qayda-qanunlarına, ideologiyasına, mədəniyyətinə, mənəviyyatına, əxlaqına xidmət etmiş, cəmiyyət üzvlərinin təhsilində, tərbiyəsində və intellektual inkişafında yaxından iştirak etmişdir. Bu mənada, müasir gəncliyin formalaşmasında, ümumiyyətlə, cəmiyyətin inkişafında kitabxanaların rolu böyükdür. Bu rol müasir mərhələdə də öz əhəmiyyətini saxlamaqdadır.

Orta əsrlərdə "yaxşı oxuyub", "yaxşı yazmaq" bilməyənlərə savadsız deyirdilər və ya yaxşı oxuyub-yaza bilənlərə savadlı deyirdilər. Sonrakı mərhələdə bu kimi yazıb və oxuya bilənlərə "yüksək mədəni insanlar" deməyə başladılar (Kunanets, Dobrovolska, Filippova, Parviz, Lypak, Duda, & Dubrovina, 2020). Müasir dövrümüz xüsusi kitabxanalar istiqamətində xeyli perespektivli görsənir (Kazimi, 2012). Dövriyəyə daxil olan yeni texnologiyaların tətbiqi ilə fiziki qüsurlu informasiya istifadəçilər üçün yeni imkanlar açılır. Qeyd edək ki, qörmə qüsurlu oxucular üçün tətbiq olunan "audio kitablar" layihəsi az bir müddətdə populyarlaşdı və geniş oxucu kontingentinin rəgbətini qazandı. Süni intellektin tətbiqi ilə xüsusi kitabxanaların əhatəliyi genişlənməyə dogru tendensiyaları görməkdəyik. Bu istiqamətdə müstəqil tədqiqat aparmaq və kitabxana-informasiya fəaliyyətinin xüsusi kitabxanalar və xüsusi xidmətlər anlayışını şərh etmək əhəmiyyətli olar. Xüsusi kitabxanaların fəaliyyətinin spesifikliyini nəzərə alaraq müstəqil araşdırma obyekti ola bilər. Bu istiqamətdə professor L. Kunanetsin tədqiqatları diqqəti cəlb edir.

Elmi kitabxanaların XXI əsrdə fəaliyyəti istiqamətində yeni "çalarlar" diqqəti daha qabarıq cəlb edir və məqalədə bu istiqamətə daha geniş yer ayırmagı nəzərdə tutmuşuq. Belə ki, elmi kitabxanalar ilk baxışdan ənənəvi kitabxana anlayışından çıxmış və yeni, elmi mərkəz "imici" formalaşdırmış kimi görsənir (Kunanets, Dobrovolska, Filippova, Parviz, Lypak, Duda & Dubrovina, 2020). İnformasiyanın əmtəələşməsi bu sahəni, Elmi kitabxanaları aktual edir və inkişafını dəstəkləyir. Elmi kitabxanaların bəzi hallarda adını "islahat olaraq" dəyişdirmək cəhdləri də mahiyyəti dəyişdirmir. İnformasiyanı toplamaq, emal etmək, mühafizə etmək, zamana və məkana ötürməklə xidmət göstərmək istiqamətində fəaliyyət göstərən müəssisənin necə adlandırılmasından asılı olmayaraq o kitabxanadır. Hal-hazırda elmi kitabxanalarda bibliometrik xidmətlər, elmmetrik xidmətlər və "informasiyanın mötəbərliyi" ilə əlaqədar xidmətlər önə çıxır. Demək olar ki, bütün elmi kitabxanalar hal-hazırda "metrix" fəaliyyət göstərir və "qiymətləndirmə" prosesinin iştirakçısıdır. Məlumdur ki, kitabxanalar çox uzun zamanlarda

biblioqrafik fəaliyyətlə və biblioqrafik statistikanın təhlili ilə məşgul olmuşdu. Müasir İKT-nin tətbiqi bu agır əl əməyi tələb edən işi xeyli sürətləndirdi və effektivliyini də artırdı. Eləcə də yeni imkanlar ortaya çıxdı. İnformasiyanın mötəbərliyi XXI əsrin informasiya təminatında çox əhəmiyyətli istiqamətlərdən biridir. Bu istiqüamətdə geniş tətbiq olunan "antiplaqiat" proqramlarının mövcudlugu, daxil olan məlumat materiallarının yoxlanılması kütləvi hall almışdır. Bir çox müəssisələrdə bu istiqamətdə fəaliyyəti təşkil etmək üçün xüsusi qurumlar və alt qurumlar yaradılır, kontentin müəllif hüququ problemi aktuallaşır, informasiya massivlərində məlumatın unikallıgı əhəmiyyət kəsb edir. Belə bir fəaliyyəti həyata keçirən qurumlar bir çox hallarda prosesə texnolojı yanaşaraq baş verən hadisənin mahiyyətini belə anlamırlar. O zaman ki, kitabxanalar institutlaşmış qurumlar olaraq prosesin informasiya məkanında və mühitində nə qədər əhəmiyyətli oldugunu informasiya xidməti çərçivəsində görür və həyata keçirə bilir. Elmi kitabxanalarda informasiy və ya kontentin daşıyıcısı anlayışı digər kitabxanalara görə daha sürətlə dəyişir. Tarixi ənənələrə görə kitab uzun müddət informasiya daşıyıcısı olaraq "bir vahid" təşkil edirdi (Kazimi & Guliyeva, 2022). İnformasiyanın sürətlə köhnəlməsi və yeni informasiya vahidlərinin formalaşması bu sahədə sistemləşdirmə aparmaq zərurətini gündəmə gətirir. Elmi kitabxanalarda elmi jurnal, elmi məqalə və elmi monoqrafiya statistikası daha çox əhəmiyyət daşımaga başlayır və onun rəqəmsal məkanda və açıq əlçatarlıqda olması şərt olaraq irəli sürülür (Kazimi & Guliyeva, 2022).Hal-hazırda informasiya vahidi olaraq informasiya daşıyıcısı deyil informasiyanın bilavasitə özü nəzərdə tutulur.Bu ənənəvi kitab və kitabça anlayışlarından fərqli steriotiplər yaradır və yeni yanaşmalar tələb edir. XXI əsrin qlobal informasiya mühiti isə Azərbaycanda kitabxana sahəsində yeni meyllərın formalaşmasını, modern informasiyalaşdırma imkanlarının təmin edilməsini və gücləndirməsini tələb edir. Ona görə də informasiya cəmiyyəti quruculuğu şəraitində ölkəmizin kitabxana vasitəsilə əhalinin bütün təbəqələrinin müxtəlif biliklərə və informasiyaya tam tələbatı tam şəkildə ödənilməlidi. Müasir dövrdə kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması zaman və məkandan asılı olmayaraq, hər bir istifadəçinin və cəmiyyətin hər bir təbəqəsinin operativ olaraq dolğun informasiya ilə təmin edilməsi kitabxanaların qarşısında duran əsas vəzifədir (Oqlu & Qurbanov, 2021). Kitabxana bu vəzifəni yerinə yetirmək üçün informasiya-kommunikasiya texnologiyalarından düzgün istifadə etməli və vətəndaşların sorğularını yerinə yetirməlidirlər. Mövcud vəziyyətlə əlaqədar bu gün kitabxanaların fəaliyyətinin müasir dövrün tələbləri sayəsində təşkili vacibdir. Bunun üçün kitabxanaların avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri, məlumat bazaları və daimi sürətli internetlə təchiz edilməsi zəruridir. Bu,

kitabxananın öz resurslarını vahid, sistemli halda formalaşdırmağa və yerləşdiyi məkandan asılı olmayaraq, istənilən vaxtda bu bazada axtarış aparmağa imkan verir.

**Nəticə**

Cəmiyyətin inkişafının hələ çox qədim (beşiyində) dövrlərində yaranmış kitabxanalar bəşər mədəniyyətinin inkişafına, onun zənginləşməsinə çox böyük töhfələr vermiş, mədəni sərvətlərin qorunub saxlanılmasında və nəsildən nəsilə ötürülməsində, mədəniyyətin funksiyasının təmin edilməsində xüsusi rol oynamışdır. Dünyanın böyük mütəfəkkirləri, elm və mədəniyyət xadimləri bəşər mədəniyyətinin inkişafında kitabxanaların rolunu xüsusi olaraq qeyd edirlər. Bəşər mədəniyyətinin əsas vasitəsi olan kitab inkişafın erkən dövrlərində meydana gəlmiş, zəmanəmizə qədər cəmiyyətlə birgə addımlamış, zaman keçdikcə formalaşmış və bəşəriyyətin yaddaşına çevrilmişdir (Kazimi & Aliyeva, 2019). Məzh bu yaddaş vasitəsilə bəşəriyyətin yaratmış olduğu biliklər nəsildən nəsilə ötürülmüşdür. Kitab camaatın maddi və mənəvi həyatının əks etdirməklə bərabər həm də cəmiyyət elminə - iqtisadiyyata, siyasətə, mədəniyyətə, əxlaqa, tərbiyyə və təhsil sisteminə də ciddi təsir göstərmiş, bəşər mədəniyyətinin təşəkkül və formalaşmasında yaxından iştirak etmişdir. Minilliklər ərzində institutlaşmışdır.

Bəşər övladı yarandığı gündən öyrənməyə, biliyə can atmışdır. Çünki biliksiz insan təbiət və cəmiyyət qüvvələrinə qarşı mübarizədə gücsüzdür. Kitab insana bilik verməklə yanaşı, onu xəyalən tarixi keçmişə aparır və elm xadimləri haqqında ətraflı məlumat verir. Kitab bir bələdçi kimi dünyanı təlatümə salan təbiət hadisələri, müharibələr, dövlət başçıları, görkəmli sərkərdələr haqqında məlumatları yeni nəsillərə çatdırır. Kitab nəinki nağıl edib öyrədir, həm də müharibələrdə, inqilablarda, dini və elmi mübahisələrdə, məzmunlarda, müxtəlif ideya və fikirlərin meydana gəlməsində yaxından iştirak edir. Kitabın tarixi cəmiyyət tarixinin ayrılmaz hissəsidir. Ona görə də kitabın tarixi onu yaradan cəmiyyətin tarixi ilə əlaqəli şəkildə öyrənilir.
İnformasiya xidmətinin bir neçə istiqamətdə kommersiyalaşması “-artıq kitabxana-informasiya fəaliyyətinə ehtiyac yoxdur” düşüncələri yaratmışdır ki, bu yanlış bir mənzərə ortaya çıxarır (Kazimi, Oqlu & Qizi, 2022). İnformasiya xidmətinin bütünlükdə kommersiyalaşması hadisəsi də cəmiyyətdə ciddi fəsadların yaranması ilə nəticələnmiş və ciddi islahatları tələb edir. Bu problem bu gün də aydın görünməkdədir. Eləcə də bir vacib olan xüsusiyyət də ondan ibarətdir ki, informasiyalaşma əgər kitabxana-informasiya müəssisələrinə eyni təsiri göstərirsə də, müxtəlif yönümlü kitabxana müəssisələrinin qarşıya qoydugu vəzifələr biri-birindən əsaslı şəkildə fərqlənir. Bu vəzifələrin əhəmiyyətliliyi isə öz növbəsində, ildən-ilə artır.

**Ədəbiyyat**

Agamirzayev, A., Seidli, N. (2023). Marketingovaya kontseptsiya deystvuyushchikh bibliotek (marketingovaya deyatel'nost' bibliotek). *Nauchno-teoreticheskiy al'manakh Grani, 26* (2), 47-50.

Agamirzayev, A.CH. i Kazimi, P.F. (2023). Posledniy iz «mogikan» sovetskogo bibliotechnogo dela. (K 90-letiyu pamyati professora A.A. Khalafova). *Nauchno-tekhnicheskiye biblioteki,* (12), 124-134.

Kazımi, P. F. (2017). Sosyal ve Kültürel Ortamın Oluşmasında Kitap ve Kütüphanelerin Rolü. *Türk Kütüphaneciliği*, *31*(2), 245-250.

Kazimi, P. F. (2011). *Information engineering in library activity.* B. BSU.

Kazimi, P. F. (2012). *Türk xalqlarının kitab və kitabxana mədəniyyəti.* Bakı.

Kazimi, P. F. O. (2021, September). Global Information Network and Conflicts of Interest (Parties, Interests and Conflicts). In *2021 IEEE 16th International Conference on Computer Sciences and Information Technologies (CSIT)* (Vol. 2, pp. 453-456). IEEE.

Kazimi, P. F. O., & Guliyeva, N. A. G. (2022). The concept of reliable information on the global network in times of crisis. *Technium Soc. Sci. J.*, *30*, 742.

Kazimi, P. F. O., Oqlu, I. I. A., & Qizi, Y. G. Y. (2022). Philosophical view on information theory (The path from the divine to the digital world). *Technium Soc. Sci. J.*, *32*, 724.

Kazimi, P. F., & Gurbanov, A. I. (2022). Today’s factors of user satisfaction with library services and their quality. *Scientific and Technical Libraries*, (2), 109-122.

Kazimi, P., & Aliyeva, A. (2019). Evaluation criteria of censorship and limitation in library and information activity. *Historical sciences*, *17*.

Kunanets, N., Dobrovolska, V., Filippova, N., Parviz, K., Lypak, H., Duda, O., ... & Dubrovina, L. (2020, September). Designing the Repository of Documentary Cultural Heritage. In *Conference on Computer Science and Information Technologies* (pp. 1034-1044). Cham: Springer International Publishing.

Oqlu, K. P. F., & Qurbanov, A. (2021). Factors influencing reader satisfaction and quality of service in modern libraries. *South Asian Journal of Social Studies and Economics, 11*(3), 15-20.

Oqlu, K. P. F. (2021). Bilginin ve Küresel Ağın Uygunluğu ve Güvenilirliği Çatışması. *Beşeri ve Sosyal Bilimlerdeki Eğilimler*, *1* (1), 1-2.